*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 11 (699)

13 iyun 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR

Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Həmin tarixi gündən bizi 32 illik zaman ayırır. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ümummilli Lider Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, respublikanın inkişafının sarsılmaz təməlləri qoyuldu.

Xalqımız artıq beş ildir ki, bu günü qalib xalq kimi daha yüksək əhval-ruhiyyə, milli qürur hissi, Qələbə ovqatı ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və uğurlu antiterror tədbirləri öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".



Ulu Öndər Heydər Əliyevin arzuları 27 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdərədə, Xocavənddə, Əsgəranda, Xocalıda və nəhayət Xankəndidə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Bu tarixi gün, eyni zamanda Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin adı tarixə müstəqilliyimizin xilaskarı, qarantı kimi yazılıb. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində baş verənlərə nəzər salmaqla Ulu Öndərin böyüklüyünü və dahiliyini əyani surətdə görə bilərik.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğalı, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial vəziyyət ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətdə belə bir ümumi fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir olan yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı real təhlükələrdən xilas etməklə yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı. Gələcəyə, konkret nəticələrə hesablanmış bu siyasət nəticəsində, həmçinin Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza davam edən təcavüzünün qarşısını almaq mümkün oldu.

Ulu Öndər müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

İyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev deyirdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır". Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, gələcək inkişaf üçün möhkəm təməllər yaratdı. Bu istiqamətdə atılan ilk mühüm addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması oldu. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu. Eyni zamanda, zəruri islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Təfərrüata varmadan demək olar ki, Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtularaq sabitliyə, əmin-amanlığa, inkişafa qovuşmasının əsasının qoyulduğu, ölkəmizin taleyinin dəyişdiyi gündür.

Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldən "Şuşa Bəyannaməsi"nin məhz Milli Qurtuluş Günündə imzalanması heç də təsadüfi deyil. Bu hadisə Azərbaycan xalqının Vətən müharibəsindən sonra yaranmış böyük ruh yüksəkliyini daha da alovlandırdı, dostlar üçün böyük sevinc, düşmən üçün isə gözdağı oldu.

Qədirbilən xalqımız Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərini daim minnətdarlıq hissi ilə xatırlayır. Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri sonrakı dövrdə də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında layiqli yer tutur, milli maraqlarımız bütün səviyyələrdə qətiyyətlə qorunur. Azərbaycan qüdrətli, öz prinsipial mövqeyi olan, müstəqil siyasət yeridən ölkə kimi tanınır.

Göründüyü kimi, Heydər Əliyevin ideyaları Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaqdadır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# Nazir Vilayət Eyvazov Bərdədə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 1-də və 2-də Bərdə Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.




Nazir əvvəlcə Bərdə şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Polis Şöbəsinin inzibati binasında Bərdə, Ağdam, Ağcabədi, Şuşa, Laçın, Tərtər, Zərdab şəhər və rayonlarından qəbula gələn 397 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 37 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 328 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**





# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN DƏSTƏ

17074 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir.



Dəstənin tərkibində fəaliyyət göstərən xüsusi vasitələrin tətbiqi bölmələrinin uğurlu fəaliyyətindən bəhs edən dəstə komandiri mayor Seymur Mehralıyev söylədi ki, qarşıya qoyulan müxtəlif tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir: “Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədi



də budur. Bu məqsədlə tərtib olunmuş məşğələ cədvəlinə əsasən hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq məşğələləri təşkil olunur. Həmçinin kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması mövzularında keçirilən məşğələlər zamanı xidməti fəaliyyətin xüsusiyyətlərinin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir. Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması, həmçinin möhkəm hərbi intizam və nümunəvi xidmət bizim əsas prinsipimizdir”.

Mayor S.Mehralıyev onu da əlavə etdi ki, çətin şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilik və praktiki bacarıqları şəxsən yoxlanılır.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ramil Əsgərov bildirdi ki, dəstədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirləri şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verir.

Mayor R.Əsgərov təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan gizir Xaliq Yusifzadə, baş çavuş Elnur Məmmədov, çavuşlar Eldar Hüseynov, Yaşar Əlipənahov, baş əsgər Pərvin Şükürlü, əsgərlər Cavid Ələkbərov və Nicat Mədədovun adlarını çəkdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**mayor Anar Əhmədov**

# HƏRBİ QULLUQÇULARIN PEŞƏKARLIĞININ ARTIRILMASINDA SƏHRA TƏLİMLƏRİNİN ROLU

Hərbi təlimlər hər bir ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətlərinin artırılması üçün əsas vasitələrdən biridir. Xüsusilə səhra təlimləri hərbi qulluqçulara döyüş şəraitinə maksimum yaxın mühitdə fəaliyyət göstərmə imkanı verir ki, bu da onların hərbi hazırlıq səviyyəsini artırmaq üçün əvəzsizdir. Real döyüş vəziyyətində şəxsi heyətin dözümlüyü, çevikliyi və qətiyyətliyi böyük əhəmiyyət daşıyır. Səhra şəraitində aparılan təlimlər şəxsi heyəti həm psixoloji, həm də fiziki olaraq gücləndirir və onları qarşılaşa biləcəkləri real vəziyyətlərə hazırlayır. Belə





təlimlər döyüş şəraitində tələb olunan xüsusi bilik və vərdişlərin mənimsənilməsinə imkan verir. Kursantlar müxtəlif taktiki manevrlər öyrənir, fərqli silah və texnikalardan istifadə qaydalarını praktiki olaraq mənimsəyirlər ki, bu da onların döyüş hazırlığını yüksəltmək üçün olduqca vacibdir.

Daxili Qoşunların Hərbi İnstitutunun kursantları üçün təşkil olunan səhra təlimləri də bu məqsədlərə xidmət edir. Daxili Qoşunların Təlim Mərkəzində təşkil edilən bu təlimlər, kursantların praktiki bacarıqlarını inkişaf etdirmək və onları real döyüş şəraitində səmərəli fəaliyyət göstərməyə hazırlamaq üçün geniş imkanlar yaradır. Təlim proqramına əsasən taktiki hazırlıq, atəş hazırlığı, hərbi topoqrafiya, fiziki hazırlıq, sıra hazırlığı, hərbi mühəndis hazırlığı və digər fənlər daxil edilir.

Taktiki hazırlıq məşğələlərində kursantlar bölmələrin döyüş mövqelərinin qurulması, müdafiə xəttinin möhkəmləndirilməsi və müxtəlif döyüş situasiyalarında düzgün qərarvermə bacarıqlarını praktiki şəkildə məşq etdirirlər. Xüsusi-taktiki hazırlıq məşğələlərində isə terrorla mübarizə, pusquya qarşı tədbirlər və iz axtarışı üzrə fəaliyyətlər həyata keçirilir. Təlimlərin mühüm hissələrindən biri də atəş hazırlığıdır. Kursantlar gündüz və gecə şəraitində avtomat, snayper tüfəngi və digər atıcı silahlarla müxtəlif tapşırıqları icra edərək sərrast atəşaçma, hədəfi tanıma və sürətli mövqe dəyişmə vərdişlərini təkmilləşdirirlər. Təlim zamanı silah və sursatla təhlükəsiz davranış qaydalarına ciddi əməl olunmalıdır. Səhra təlimində hərbi topoqrafiya fənninə də xüsusi diqqət yetirilir. Kursantlara xəritə oxuma, kompasdan istifadə, yüksəklik və məsafə hesablama, ərazidə istiqamət təyini kimi praktiki bacarıqlar aşılanır.

Təlimin diqqət çəkən mərhələlərindən biri də gecə şəraitində keçirilən məşğələlərdir. Qaranlıq mühitdə müşahidə aparma, azimut üzrə hərəkət etmə və hədəf təyini ilə bağlı tapşırıqlar kursantların ekstremal şəraitdə çevik və koordinasiyalı fəaliyyət göstərmək bacarıqlarını inkişaf etdirir.

Ümumilikdə səhra təlimləri kursantlarda döyüş vərdişləri ilə yanaşı, vətənpərvərlik ruhunun, məsuliyyət hissinin və komandirlik keyfiyyətlərinin daha da güclənməsinə xidmət edir. Real döyüş şəraitinə yaxın mühitdə keçirilən bu məşğələlər kursantların peşəkar, çevik və qətiyyətli zabitlər kimi formalaşmasında mühüm rol oynayır. Daxili Qoşunların Hərbi İnstitutu bu kimi təlimlərlə Vətənə sədaqətli, peşəkar və yüksək döyüş hazırlığına malik zabitlərin hazırlanması istiqamətində fəaliyyətini uğurla davam etdirir.

**Hərbi İnstitutun**
**Hərbi-elmi şöbəsinin rəisi**
**polkovnik-leytenant**
**Vüqar Şirinov**

# DÖYÜŞ QABİLİYYƏTİNİN ARTIRILMASINDA FİZİKİ HAZIRLIĞIN MÜSTƏSNA ROLU VAR

Daxili Qoşunlarda şəxsi heyətin fiziki hazırlığının inkişafına ciddi önəm verilir. Fiziki hərəkətlər hərbi qulluqçuların həyat fəaliyyətində, eyni zamanda xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində mühüm amildir. Qüvvətli və dözümlü hərbi qulluqçu istənilən tapşırığı uğurla icra edir.



Hərbi hissələrdə idman qurğuları ilə təchiz edilmiş idman şəhərcikləri mövcuddur. Şəxsi heyətin həm sağlamlığı, həm də dözümlülüyünü formalaşdırmaq, həmçinin döyüş qabiliyyətinin artırılması üçün hərbi hissələrin idman şəhərciklərində mütəmadi olaraq fiziki hazırlıq məşğələləri keçirilir.

Hər bir zabit, gizir, müddətdən artıq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu özünün fiziki hazırlığına şəxsən məsuliyyət daşımalı, verilən tapşırıqları yerinə yetirməyə fiziki cəhətdən daim hazır olmalıdır. Müntəzəm idmanla məşğul olan hərbi qulluqçuda fiziki keyfiyyətlər inkişaf edir.



Daxili Qoşunların Baş İdarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin fiziki hazırlıq və idman rəisi polkovnik-leytenant Mehman Nəsibov fiziki hazırlığın əhəmiyyətindən danışdı. Fiziki hazırlıq məşğələlərinin daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında fiziki hazırlıq üzrə fəaliyyətin təşkilinə dair Təlimat”ın tələblərinə əsasən keçirildiyini bildirdi: “Məşğələlərdə gücün nümayiş olunmasına və ümumən, əzələlərdə fiziki gücün artırılmasına dair çox sayda hərəkət mövcuddur. Fiziki hazırlığın nəticələrinin yüksəldilməsi üçün daim məqbullar qəbul olunur. Yüksək fiziki hazırlıqlı hərbi qulluqçu döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir”.

Qeyd edək ki, hərbi-idman kompleksinin normativlərini müvəffəqiyyətlə yerinə yetirmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularımız həvəsləndirmə qaydasında I və II dərəcəli “İdmançı əsgər” döş nişanı ilə təltif olunurlar.

Müntəzəm olaraq keçirilən idman təlimi tibbi baxımdan da insan orqanizminə müsbət təsir göstərir, xəstəliklərə yoluxmanın qarşısını alır. Bu zaman əhval-ruhiyyə yaxşılaşır, cəsarət, güc, özünəinam keyfiyyətləri formalaşır. İnsanlarda iradi keyfiyyətlərin inkişafı ilə yanaşı, piy qatlarının əriməsi və ümumən, qeyd etdiyimiz kimi, əzələ tonusunun gümrah saxlanılmasına kömək edir. Eyni zamanda qan-damar sisteminə və qan dövranının yaxşılaşmasına müsbət təsiri gündəlik olaraq öz təsdiqini tapır.

Döyüşdə uğur əldə etmək, qələbəni qazanmaq üçün şəxsi heyətin həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən yüksək səviyyədə olması vacib şərtdir. Bu amil 44 gün davam edən Vətən müharibəsində zəfərin əldə olunmasında mühüm rol oynadı. Fiziki cəhətdən güclü, çevik olan hərbi qulluqçularımız döyüş meydanında uğur qazandılar. Hərbi qulluqçularımız həm mənəvi, həm taktiki, həm də fiziki cəhətdən güclü olduqlarını sübut etdilər.

Torpaqlarımızın işğaldan azad edilməsində müasir silah və texnika ilə yanaşı, onları idarə edə bilən fiziki cəhətdən hazırlıqlı hərbi qulluqçuların rolunu xüsusi vurğulamaq lazımdır. Hərbi qulluqçularımızın fiziki cəhətdən hazırlıqlı olmaları Vətən müharibəsində çətin keçilə bilən ərazilərdə piyada, tam ekipirovka ilə hərəkət zamanı, düşmənlə üz-üzə gəldikdə əlbəyaxa döyüşərkən, döyüş tapşırıqlarını uğurla yerinə yetirmələrindən hiss olunurdu.

Dövlətimizin suverenliyini və ərazi bütövlüyünü qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur. Hərbi qulluqçularımız qarşıya qoyulan hər hansı tapşırığın yerinə yetirilməsinə hər zaman hazır olmalı və öz fiziki hazırlıqlarını hər zaman yüksək səviyyədə saxlamalıdırlar.

**kapitan Şahin Cəfərzadə**

# BATAREYA TAPŞIRIQLARI PEŞƏKARLIQLA YERİNƏ YETİRİR

Məlumdur ki, Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 17074 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və intizamı ilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə minaatan batareyanın komandiri baş leytenant Niyaməddin Ələkbərlinin zəhməti danılmazdır.





Minaatan batareyanın vəzifələri barədə danışan baş leytenant N.Ələkbərli bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyilə təmin etməkdən ibarətdir.

Batareya komandiri söylədi ki, qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir. Zabitimiz hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına komandir heyətinin xüsusi diqqət yetirdiyini dedi: “Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində “batareya hücumda” və “batareya müdafiədə” mövzularında təlimlər keçirilir, həmçinin minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir”.

Baş leytenant N.Ələkbərli funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş leytenant Şöhrət Abbas, leytenantlar Şamil Hüseynov, Sənan Qənbərli, baş gizir Ülvi Qasımov, çavuşlar Cahid Məmmədov, Şərafəddin Hüseynli, əsgərlər Fuad Ağayarov, Nihad Baratov və Siyavuş Orucovun adlarını çəkərək əlavə etdi ki, batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**mayor Anar Əhmədov**

3_Layout 1 28.05.2025 08:07 Page 1



# QURBAN BAYRAMI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ QEYD OLUNUB




İslam dünyasının müqəddəs bayramlarından biri olan Qurban bayramı insanları halallığa, paklığa səsləyir, ehtiyacı olanlara köməklik göstərilməsini təcəssüm etdirir. Bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanların ətini imkansız insanlarla bölüşdürmək, onları sevindirməkdir. Göründüyü kimi, ayinin əsasında xeyirxahlıq, təmiz niyyət və Allaha inam durur.

Dünya müsəlmanlarının böyük coşqu ilə qarşıladıqları Qurban bayramı milli-mənəvi ənənələrimizə sədaqət və hörmətlə yanaşan xalqımız tərəfindən də böyük sevinc və təntənə ilə qeyd olunur.

Hər zaman olduğu kimi, bu il də müqəddəs bayramımız Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində lazımi səviyyədə keçirilib. Bu məqsədlə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradovun müvafiq göstərişi hazırlanıb və hərbi hissələrə göndərilib.

Bayramla əlaqədar olaraq, Hərbi İnstitutda və hərbi hissələrdə tərbiyə işi tədbirləri planlaşdırılaraq keçirilib. Nəzərdə tutulmuş plana uyğun olaraq, gün ərzində hərbi hissələrin bölmələri arasında müxtəlif maraqlı oyunlar, Qurban bayramı haqqında disputlar, televiziya vasitəsilə bayram verilişlərinə baxış, bayram naharı, stolüstü oyunlar, şən estafetlər keçirilib.

Bununla yanaşı, təşkil olunan tədbirlərdə bayramın tarixi, onun mahiyyəti, şərtləri, insanları sevindirməyin əhəmiyyəti barədə şəxsi heyətə ətraflı məlumat verilib. Sözügedən bayramın əsasən Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi vaxtdan ümumxalq səviyyədə təşkil olunduğu xüsusilə vurğulanıb.



Həmçinin Daxili Qoşunların Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş hərbi qulluqçularının ailələri, döyüşlərdə yaralanmış, xəsarət almış ehtiyatda olan qazi hərbi qulluqçuları diqqətdən kənar qalmayıblar, onlar ziyarət olunublar, qurbanlıq payları verilib.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ İNSTİTUTDA KORRUPSİYAYA QARŞI MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLİB

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda kursantların iştirakı ilə korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş maarifləndirici tədbir keçirilib. Tədbir Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilib.



Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları kursantlarla görüşərək geniş məruzələrlə çıxış ediblər. Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İlkin Babazadə "Korrupsiyanın mahiyyəti, onun cəmiyyətə təsiri və ona qarşı mübarizənin zəruriliyi" mövzusunda təqdimatla çıxış edərək korrupsiyanın milli təhlükəsizliyə, dövlətçilik prinsiplərinə və hüquqi mədəniyyətə vurduğu zərərlərdən bəhs edib.

Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Fərid Qarakişiyev isə "Hərbi sahədə korrupsiya hüquq pozmalarına qarşı preventiv tədbirlərin əhəmiyyəti" mövzusunda çıxış edərək kursantlara konkret faktlar və hüquqi mexanizmlər əsasında məlumat verib. O, korrupsiyaya qarşı mübarizədə şəffaflığın, hesabatlılığın və peşəkar hazırlığın vacibliyinə diqqət çəkib.



Tədbirin əsas məqsədi gələcəkdə zabit kimi xidmət edəcək kursantların hüquqi maariflənməsini təmin etmək, onları korrupsiyaya qarşı mübarizənin fəal iştirakçısına çevirməkdir. Müzakirələr zamanı kursantlar tərəfindən verilən suallar, mövzu ətrafında aparılan interaktiv dialoq tədbirin yüksək praktiki faydasını ortaya qoyub.

Daxili Qoşunların Hərbi İnstitutunun rəhbərliyi bu qəbildən olan tədbirlərin davamlı xarakter alacağını, hərbi təhsil və tərbiyə prosesinin ayrılmaz komponenti kimi hüquqi maarifləndirmənin hərbi təlim-tərbiyə prosesinin tərkib hissəsi kimi bundan sonra da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

**Hərbi İnstitutun ştatdankənar müxbir postu**

# ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİ EHTİRAMLA ANILIB

Vətən torpağı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın xatirələri xalqımız tərəfindən həmişə uca tutulur. Onların xatirələri ehtiramla anılır, ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyətləri gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.



Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.



17074 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor Seymur Mehralıyevin rəhbərliyi ilə dəstənin bir qrup şəxsi heyətinin Daxili Qoşunların şəhid hərbi qulluqçuları, Vətən Müharibəsi Qəhrəmanı mayor Qaflanov Şixamir Oruc oğlunun Zaqatala rayonunun Üçüncü Tala kəndində və əsgər Osmanov Nəzir Rahib oğlunun Qax rayonunun Qıpçaq kəndində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. Öncə hərbi qulluqçularımız tərəfindən şəhid hərbi qulluqçularımızın məzarları ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlıların xatirəsi anılaraq məzarlarına gül dəstələri qoyulub.

İlk olaraq Zaqatala rayonunun Üçüncü Tala kəndində yaşayan şəhid ailəsi ilə görüşən hərbi qulluqçularımız Şixamirin anası Mömünə Qaflanova və böyük qardaşı Asif Qaflanov ilə söhbət ediblər. Söhbət zamanı onlar Şixamirin xidmət və döyüş yolu barədə xatirələrini bölüşüblər.

Qeyd edək ki, mayor Şixamir Qaflanov 1986-cı il dekabrın 7-də Zaqatala rayonunun Dombabinə kəndində (indiki Üçüncü Tala kəndi) anadan olub. Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən bir zabit və hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi Şixamirin ən böyük arzusu işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi. Məhz bu səbəbdən də 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. 19 oktyabr 2020-ci il tarixində Füzuli-Xocavənd istiqamətində qanlı döyüşdə Şixamir tabeliyində olan cəsur silahdaşları ilə birgə ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, mühüm strateji mövqelərini ələ keçirib. Düşmən digər yüksəkliklərdə yerləşən postlarından itirdikləri mövqeləri snayperlərdən, iriçaplı silahlardan və minaatanlardan güclü atəşə tutub. Şiddətli döyüş gedişində düşmən snayperinin açdığı atəş nəticəsində baş nahiyəsindən ağır yaralanan mayor Şixamir Qaflanov gözlərini yumaraq əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycan Respublikası Prezidentinin 9, 15, 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə mayor Ş.Qaflanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb, həmçinin "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib. Bundan əlavə, qəhrəman şəhid silahdaşımızın əziz xatirəsinin əbədiləşdirilməsi üçün Zaqatala rayonunda yerləşən humanitar fənlər gimnaziyasına onun adı verilib.



Sonra Qax rayonunun Qıpçaq kəndində yaşayan şəhid Nəzir Osmanovun ailəsinə baş çəkilib. Şəhidin atası Rahib Osmanov və anası Arzu Osmanova hərbi qulluqçularımızı mehribanlıqla qarşılayaraq, onları görməkdən məmnun olduqlarını bildiriblər.

Məlumat üçün qeyd edək ki, əsgər Nəzir Osmanov 1998-ci il yanvarın 1-də Qax rayonunun Qıpçaq kəndində doğulub. Vətən müharibəsi zamanı Nəzirin döyüş yolu Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərindən keçib. Döyüşçü sürücü olaraq ön cəbhədə ona verilən tapşırıqları qətiyyətlə yerinə yetirib. Şəxsi heyətin, sursatların və digər növ mühüm təchizatların ön mövqelərə daşınması, yaralıların təxliyəsində cəsarət, qorxmazlıq, habelə peşə məharəti nümunəsi göstərib. 2020-ci ilin noyabrın 1-nə keçən gecə Şuşaya doğru hərəkət edərkən Xocavənd rayonunun Böyük Tağlar kəndi istiqamətində meşəlik ərazini keçərkən hərbi avtomobillərdən ibarət karvan düşmən topları və minaatanlarından şiddətli atəşə tutulub. Həmin vaxt Nəzir yaxınlığında partlayan mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə əsgər N.Osmanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib. Bununla yanaşı, Qax rayonunda yerləşən 2 saylı və Qıpçaq kəndindəki tam orta məktəblərdə ayrı-ayrı tədris sinifləri şəhidin adını daşıyır.




Mayor S.Mehralıyev şəhidlərimizin fədakarlığı sayəsində ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, Silahlı Qüvvələrimizin Qarabağ bölgəsində həyata keçirdiyi uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb. Dəstə komandiri hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub. Qeyd edib ki, Vətən uğrunda canlarını qurban verən şəhidlərimizin və sağlamlıqlarını itirən qazilərimizin keçdikləri döyüş yolu, göstərdikləri şücaət nümunələri şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə edilməsi baxımından geniş təbliğ olunur, şəhid ailələrinə və qazilərə mütəmadi olaraq baş çəkilir.




Müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirən şəhid ailələri buna görə dərin minnətdarlıqlarını ifadə ediblər.

**mayor Anar Əhmədov**

4_Layout 1 28.05.2025 09:00 Page 1



# YEMƏKXANADA GİGİYENİK QAYDALARA ƏMƏL OLUNUR

Hərbi qulluqçuların sağlamlığının qorunması və möhkəmləndirilməsi diqqət yetirilən məsələlərdəndir. Bu baxımdan şəxsi heyətin yüksək kaloriili, keyfiyyətli yeməklərlə qidalanması daim nəzarətdədir.



Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin ərzaq xidmətinin rəisi kapitan Rabil Əmirxanov qeyd etdi ki, yeməkxanada şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil olunur. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür. O, görülən işlərdə yeməkxananın rəisi baş çavuş Dəyanət Rüstəmovun əməyini xüsusilə vurğuladı.




Baş çavuş D.Rüstəmov hərbi qulluqçuların qidalanmasından bəhs edərkən söylədi ki, gündəlik olaraq üç dəfə qidalanma həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə diqqət yetirilir. Həmçinin yeməkxanada bütün sanitar-gigiyenik qaydalara ciddi riayət olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qida şəxsi heyətə təqdim olunmamışdan əvvəl onun keyfiyyəti həkim tərəfindən yoxlanılır.

Yeməkxana rəisi gündəlik qida rasionu barədə də məlumat verdi. Qeyd etdi ki, əsasən milli təamlara üstünlük verilir.

Bununla yanaşı, baş çavuş D.Rüstəmov baş aşpaz-təlimatçı baş çavuş Mansur Xasməmmədzadə, mülki işçi - aşpazlardan Laləzar Zöhrabova, Yaqut Adıgözəlova və Vüsalə Qəribovanın fəaliyyətini müsbət xarakterizə etdi, onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün heç bir əməklərini əsirgəmədiklərini söylədi.

Həmçinin qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Faiq Nəbiyevin və Murad Tağıyevin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN CAMAŞIRXANASININ FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR

16075 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin də əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması məhz onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Rüfət Məhərrəmov tabeliyində olan işçilərin fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Fatma Əmrahova,



Zeynəb Yunusova, Süsənbər Süleymanova və Mehbarə Adıgözəlova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısıyla yanaşırlar.

Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

İşçilər üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

**kapitan Şahin Cəfərzadə**

# “SAĞLAM DİŞLƏR, GÖZƏL TƏBƏSSÜM HƏR BİR İNSANIN HAQQIDIR”

Hərbi qospital-12576 saylı hərbi hissənin savadı, bacarığı və peşəkarlığı ilə seçilən mülki həkimlərindən biri də Yaşar Verdiyevdir. O, 1986-cı il avqust ayının 11-də Sumqayıt şəhərində, həkim ailəsində anadan olub. Orta təhsilini 1993-2004-cü illərdə Sumqayıt şəhərində yerləşən Fəxrəddin Piriyev adına 9 nömrəli tam orta məktəbdə alıb. Uşaqlıq çağlarını ömrünün ən gözəl illəri kimi xatırlayan Yaşar gələcəkdə hansı peşənin sahibi olacağını da məhz həmin illərdən yəqinləşdirib.

Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra 2005-ci ildə Odlar Yurdu Universitetinin stomatologiya fakültəsinə qəbul olunub. Ali təhsilini başa vur-



duqdan sonra 2013-cü ildə İsrailin Haifa şəhərində yerləşən Rambam xəstəxanasında oral implantologiya üzrə təkmilləşmə kursu keçib. 2014-2015-ci illərdə Almaniyanın Goethe İnstitutunda və Türkiyənin İstanbul şəhərində Cərrahpaşa xəstəxanasında oral implantologiya kurslarında iştirak edib. 2016-2018-ci illərdə isə Ukraynanın Xarkov şəhərində üz-çənə cərrahiyyəsi üzrə klinik ordenatura təhsilinə yiyələnib.

Həkim kimi peşəkarlıq vərdişlərini hər zaman təkmilləşdirməyi qarşısına məqsəd qoyan Yaşar həkim Daxili Qoşunların Hərbi Qospitalına 2023-cü ilin oktyabrın 21-də qəbul olunub. Hazırda cərrahiyyə şöbəsində həkim - üz-çənə cərrahı vəzifəsindədir. 12576 saylı hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Aparılan cərrahiyyə əməliyyatlarında iştirak edən həkim şöbəyə müraciət edən xəstələrin sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəmir.

**kapitan Nigar Ağayeva**

## *Sağlamlıq*

### A vitamini bütün xəstəliklərin dərmanıdır




Dünya alimləri metabolizm proseslərində mühüm rol oynayan A vitamininin imkanlarını öyrənirlər. Müasir tədqiqatlar göstərir ki, məhz A vitamininin çatışmazlığı immun sistemini zəiflədir və insan infeksiyalar, iltihablar, digər xəstəliklər qarşısında əlacsız qalır. A vitamini həm də ən mükəmməl antidepressantdır. Bu vitamin insan orqanizmi üçün çox əhəmiyyətlidir.

A vitamininin universallığı getdikcə daha çox təsdiq edilir. Onun mədə-bağırsaqda və ümumiyyətlə bütün orqanizmdə iltihabla mübarizə prosesinə təsir etməsi məlum olmuşdur.

A vitaminini həm də cavanlıq vitamini adlandırırlar. Beləki, o, dərinin, saçın, dırnaqların və daxili orqanların hüceyrə strukturuna təsir edir.

### Almanın qabıq və çəyirdəyində də vitamin var

Almanın qabıq və çəyirdəyində də vitamin var. Alma çəyirdəyinin tərkibində bir çox nadir və faydalı maddələr var. Çox vaxt həkimlər almanı bütöv şəkildə, yəni qabıq və çəyirdək-



ləri ilə birlikdə yeməyi tövsiyə edirlər.

Gün ərzində 5-6 alma çəyirdəyindən artıq yemək məsləhət görülmür, çünki tərkibindəki sionid turşusu güclü zəhərdir və orqanizmdə onun çoxluğu zəhərlənməyə səbəb ola bilər. Alma çəyirdəyi xərçəng əleyhinə təsirə malikdir, tərkibi B17 vitamini, yod və kaliumla zəngindir. Kalium isə ürək-damar sistemi üçün ən vacib olan mineraldır.

**AZƏRTAC**

## *İdman*

# HƏRBİ QULLUQÇUMUZ AVROPA ÇEMPİONATININ QALİBİ OLUB

Mayın 22-dən 26-na kimi Latviyanın Riqa şəhərində usta cüdoçular arasında keçirilən çempionatda mayor Emil Hüseynov ölkəmizi layiqincə təmsil edib. 37 ölkədən 1500 idmançının iştirak etdiyi çempionata hərbi qulluqçumuz 100 kq çəkidə qatılıb. Qələbə iddiası ilə döyüşə başlayan təmsilçimiz 4 görüş keçirərək təmiz qələbə ilə kürsünün 1-ci pilləsinə yüksəlib. Qeyd edək ki, bu onun ilk qələbəsi deyil.




Daxili Qoşunların idman şərəfini layiqincə qoruyan mayor E.Hüseynov 8 yaşından idmanın sambo, cüdo növləri ilə məşğul olur. İdmana olan sevgisi zaman keçdikcə onu peşəkar idmançıya çevirib. 1996-cı ildə gənclər arasında keçirilən Avropa çempionatında 3-cü yerə layiq görülərək, cüdo üzrə idman ustası adını qazanıb. 1994-1998-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında, 2001-2005-ci illərdə isə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında ali təhsil alıb. Müddətli həqiqi hərbi xidmətini də Daxili Qoşunların İdman komandasında keçib. Müddətdən artıq həqiqi hərbi xidmətə 1999-cu ildə 16075 saylı hərbi hissədən başlayıb. Bu hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edən hərbçimizə 2002-ci ildə “leytenant” hərbi rütbəsi verilib.

İdmançı hərbi qulluqçumuzu növbəti qələbəsi münasibətilə təbrik edir, Daxili Qoşunların idman şərəfini ləyaqətlə qoruyan, idman yarışlarında Azərbaycan bayrağını ucaldan bütün idmançılarımızla fəxr edirik.

**Mətbuat xidməti**

## *NÜMUNƏVİ XİDMƏT*

# MƏSULİYYƏTLİ VƏ BACARIQLI KARGÜZAR

17074 saylı hərbi hissənin intizamlı qadın hərbi qulluqçularından biri çavuş Leyla Abdüləzizovadır. O, 1993-cü il fevralın 27-də Balakən rayonunun Katex kəndində anadan olub. 1999-2010-cu illərdə Katex kəndində yerləşən 2 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıq illərindən hərbi xidmətə böyük maraq göstərib. 2016-cı ildə Daxili Qoşunlarda həqiqi hərbi xidmətə qəbulla bağlı müraciət edib. Hazırda 17074 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin kargüzarı (avtomobil və zirehli texnika xidməti üzrə) vəzifəsindədir.



Çavuş L.Abdüləzizova xidmətə başladığı ilk gündən bacarığı, işgüzarlığı ilə yoldaşlarının və komandanlığın etimadını qazanıb. Üzərinə düşən vəzifələri ləyaqətlə, dəqiqliklə yerinə yetirən qadın hərbi qulluqçumuz müsbət xarakterizə olunur, müxtəlif mükafatlara layiq görülüb.

Məlumat üçün qeyd edək ki, çavuş L.Abdüləzizovanın əmisi Həmzət Abdüləzizov Daxili Qoşunların əsgəri kimi 1992-ci il avqustun 31-də respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda Ağdərə rayonunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# İNTİZAMLI VƏ VƏTƏNPƏRVƏR ƏSGƏR

17071 saylı hərbi hissənin nümunəvi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Həsənağa Abasov 2000-ci ilin oktyabr ayının 21-də Bakı şəhərində anadan olub. Öz vətənpərvərliyi ilə seçilən hərbi qulluqçu komandirlərinin, əsgər yoldaşlarının hörmət və etimadını qazanıb.



2018-ci ildə Qaradağ rayonunda yerləşən 233 saylı orta məktəbi bitirib. 2018-2022-ci illərdə Milli Aviasiya Akademiyasında “İqtisadiyyat” ixtisası üzrə ali təhsil alıb. 2022-2024-cü illərdə isə Azərbaycan Universitetində “Biznesin idarə edilməsi” ixtisası üzrə magistr dərəcəsində ali təhsili tamamlayıb.

2024-cü ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılan əsgər H.Abasov hazırda 17071 saylı hərbi hissənin komendant bölüyündə xidmətini uğurla davam etdirir. Qaravul xidmətinə cəlb olunur. Təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini bilir. Bölük komandiri tərəfindən məsuliyyətli, bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur. Hərbi biliklərə xüsusilə maraq göstərir.

Əsgər H.Abasov komendant xidmətinin məsuliyyətini dərindən dərk edərək üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə Somaliyə T129 ATAK helikopterləri təhvil verib



Türkiyə “Əş-Şəbab” silahlı qruplaşmasına qarşı mübarizədə Somaliyə hərbi dəstəyini artırıb. “Poliqon” “Middle East Eye” (MEE) nəşrinə istinadən xəbər verir ki, Türkiyə Somaliyə üç ədəd T129 ATAK hücum helikopteri təhvil verib.

Eyni zamanda rəsmi Ankara Somaliyə iki ədəd çoxməqsədli helikopter də tədarük edib. Bu, 2024-cü ilin fevralında iki ölkə arasında imzalanmış müdafiə sazişi çərçivəsində həyata keçirilib.

## Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin komandanlığı baş leytenant Ehtiram Maxsudzadəyə qızının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000